# KREDO

№ 37 (702) 6 oktyabr 2012-ci il

REDAKSİYA HEYƏTİ

Əli Rza Xələfli - baş redaktor

(www.eli-rza-xelefli.net)

Budaq Budaqov
Ağarəhim Rəhimov
Bədirxan Başkeçidli
Elçin Kamal
Ədalət Əsgəroğlu
Ənvər Nəzərli
Zəlimxan Yaqub
Firuz Mustafa
Hafiz Rüstəm
Hüseynbala Mirələmov
İlyas Tapdıq
Qəzənfər Kazımov
Qəzənfər Paşayev
Qurban Bayramov
Mahirə Abdullayeva
Nizaməddin Şəmsizadə
Nizami Cəfərov
Nizami Məmmədov
Paşa Qəlbinur
Salatın Əhmədli
Söhrab Tahir
Rəşid Şəfəq
Tofiq Hacıyev
Təyyar Salamoğlu
Şirin xanım Şadiman
Vaqif Yusifli
Yusif Nəğməkar

## MƏNİM TURAN DASTANIM

### *və ya "Araz ağrısı" poeması haqqında bir neçə söz*

*(Əvvəli 14-cü səhifədə)*

Müəllifin yaradıcılığında olan yanğı ətrafına xeyli ziyalı dostlar toplamışdır. Hərdən onlarla dərdləşsə də, onlara müraciət etsə də, onlardan bir kömək, imdad istəsə də, təskinlik gətirəcək bir cavab yoxdur. Bu səbəbdən də poemada bir çoxlarına cavabsız müraciətlər öz əksini tapmışdır. Gah Dədə Qorquda, gah da bu günümüzə qayıdan şair, istər keçmişdən, istərsə də bugünkü dünyagörmüş ziyalılardan, məsələn, Söhrab Tahirdən və s. güc almağa çalışır. Onun dostları da çoxdur. Hərdən də onlarla özünün Vətən ağrısını bölüşməyə, hallarını soruşmağa vaxt tapa bilməməsini də "dərd harayı"nın ağırlığı adlandırır Əli Rza Xələfli.

Şair-publisist bir daha Vətəninə bağlı olmaqla, öz valideynlərinə - ata-anasına, ailəsinə də bağlı bir insandır. Şairin atası Zal kişi həqiqətən də, öz el-obası, elatı üçün dostluq, kişilik, mərdlik, igidlik etalonu olmuşdur. Bu obrazı onun haqqında yazılmış başqa əsərlərdən də tanıyırıq, - desək, yanılmarıq.

Daim atasını özünə ideal seçən, ondan eşitdiyi müdrik sözləri gənclərə aşılayan şair onun hər bir kəlməsindən bəhrələnməyə, hər öyüdündən həyat dərsi almağa, çox şeyi görüb-götürməyə çalışmışdır. Atasının dünyadan köçməsi də, təbii ona çox pis təsir etmiş, poemada da ona xüsusi yer ayırmışdır. Ata ağrısını Araz ağrısına qatmışdır.

Adına uyğun olaraq, poema başdan-başa ağrılar dastanıdır. Vətəninin, xalqının, millətinin parçalanmasına, qarət olunmasına təkrar-təkrar qayıdan şair öz dərdini, ağrısını xəlvətcə, səssiz-səmirsiz axan, kükrəməyən Arazla bölüşür, söhbətləşir poema boyu. Əslində, hər bir misranın, hər bir bəndin özündə xüsusi bir fikir, ən çox da sətiraltı ifadələr var:

***Araz ağrısına qatıb könlümü,***
***İllər ayrısına dönüb qalmışam.***
***Ağrıya, acıya çatıb könlümü,***
***Ərimaz buz dağı - donub qalmışam.*** -

deyən şairə təsəlli olaraq:

***Ağıl köhlənində şığıyıb gələr,***
***Qılıncı siyirər bir türk aslanı.***

- elə öz sözləriylə cavab vermək istərdim. Və bu cavabımdakı düzəlişə görə müəllifdən üzr dilərdim.

Mən deyərdim ki, bu poema çağdaş dövrümüzdə gənclərimizə ünvanlanmış bir məktubdur. Bu "məktub"da çoxlu nəsihətlər, məsləhətlər, dərslər, örnəklər yazılıb. Və ən başlıcası, acı, yandırıcı bir tarix yazılıb.

Müəllifə müraciətlə demək istəyirəm ki, heç zaman ürəyinizdə donan ümidlər xəyala çevrilməsin. Mən inanıram ki, hər bir azərbaycanlının ürəyində Vətən ağrısı səngiyəcək nəhayət. Bizi yetişdirən, kamilləşdirən Vətənimizə nankor çıxmayacağıq və ən əsası, ulularımızın, ziyalılarımızın bizə qoyub getdikləri tariximizi qoruyub yaşadacağıq və itən tarixi "vərəqlərimizin" bərpasına çalışacayıq.

Hörmətli Əli Rza müəllim, sizi çoxdan tanıyıram və məndən olsaydı, bu poemanızı həm də bütün Turan dünyasının dastanı adlandırardım!

***01.02.09***

# ÖMÜR BİTƏR, YOL BİTMƏZ

### *«KREDO»nun 700-cü SAYI VƏ BAŞ REDAKTORUN 60-a KEÇİD KÖRPÜSÜNDƏ TƏBRİK*



*İsaxan İSAXANLI,*
*pedaqoji elmlər üzrə fəlsəfə doktoru*

Hörmətli Əli Rza Xələfli, əziz dostum, sənin və həm də elə ədəbi ictimaiyyətimiz üçün əlamətdar bir vaxtda bu qeydləri düşüncələrimdən keçirib oxuculara ünvanlamağım təsadüfi deyil. Onsuz da kimsəyə sirr deyil ki, elə müraciətlər var ki, adamda qürur hissi doğurur. Çünki bilirsən kimə, hansı gücün sahibinə və hansı əməlinə görə müraciət edirsən. Deyərdim ki, sənin yaradıcılığını ən ardıcıl və davamlı şəkildə izləyən oxucularındanam. Çünki illərdən bəri həftəlik nəşr olunan *«Kredo»* qəzeti həm də sənin yaradıcılığının güzgüsüdür. Ədəbiyyatımızın, mədəniyyətimizin, eləcə də dilimizin və tariximizin ən müxtəlif sahələrinə dair qələmə aldığın yazılar bu qəzetdə işıq üzü görür. Və istər-istəməz biz sənin mənəvi üfüqlərini təsəvvür edə bilirik. Müxtəlif istiqamətlərdə - elmi-publisistik, və eləcə də bədii nəsr və poeziya sahələrində yorulmadan qələm çalır, işləyirsən.

Yazılar müəllifin mənəvi siması, onun vətəndaşlıq mövqeyini göstərən ədəbi sənədlərdir. Zamanın, dövrün məhv edə bilməyəcəyi, gələcək nəsillərə çatacaq sənədlər. Ona görə də əmin ola bilərsən ki, *«Kredo»* qəzetinin çoxcildli topluları ədəbi abidələr kimi gələcəyin tədqiqat mövzusu olacaq, təkrar-təkrar araşdırılacaq, ədəbiyyat tariximizin, mənəvi mühitimizin ən dəyərli səhifələri bu qəzet vasitəsilə öyrəniləcəkdir.

60-a keçid ərəfəsində gərgin əməyin, böyük zəhmətin və sözsüz ki, istedadın sayəsində qələmə aldığın çətinliklə olsa da, nəşr etdirib oxuculara çatdırdığın əsərlərin, çoxsaylı kitabların sırasını nəzərdən keçirirəm. 30-a qədər şəxsən müəllifi olduğun və 20-yə qədər tərtibçi-müəllif və redaktor hüququ ilə ərsəyə gətirdiyin çap məhsulları sənin ədəbi taleyin haqqında kimsəni maraqlandıracaq suallara cavab verə bilər. Bu cavabların dolğunluğu və əhatəliliyi sənin əsərlərini özündə ehtiva etmiş olar. *«Həsrət körpüsü»*, *«Azadlığın qanı»*, *«Araz ağrısı»*, *«Damcılı»*, *«Bu dünyanın Mehmanısan»* şeirlər və poemalar kitabların ədəbi-elmi ictimaiyyətin diqqətini cəlb edib. Mərhum professor Abbas Hacıyev *«Sənətin işığında»* monoqrafiyası yaradıcılığına, əsərlərinin mövzu və əhatə dairəsinə kifayət qədər işıq tuta bilmişdir. Sizin yaradıcılığınızı və "Kredo" qəzetinin ədəbi fəaliyyətini ədəbiyyatımızın görkəmli simalarından biri, müdrik İmamverdi Əbilov da yüksək qiymətləndirir: *"Əzizim Əli Rza müəllim, ürəyinizcə, arzunuzca keçən uzun, sağlam, məmnun ömür arzulayıram. Siz, hər yerə, hər şeyə ucalıqdan baxmaq imtiyazına layiq ziyalısınız. Qəzetinizdən gördüyüm səyiniz, bədii səviyyə məna tutumu, bədii sərištə, gündən-günə zənginləşən yaradıcılığınız ədəbi xəzinəmizə çox qiymətli töhfələr kimi məni sevindirir. Əli Rza müəllim, artıq fəal jurnalist yox, sözün qədrini uca tutan püxtə, kamil yazıçı - yanar ürəkli yazar kimi oxucuların etibarlı könül dostuna çevrilmişdir. Bu həqiqəti görməmək ya maymaqlıq, ya karyeristlik, ya da aşkar xudbinlikdir. Bədii yazılarınızla məni, minlərlə ədəbiyyat sərraflarını sevindirdiyiniz üçün sağ olun! ...Hiss edirəm ki, siz sənətin bütün sahələrinə həssassınız. Və «Kredo»nu Azərbaycan mənəviyyatının parlaq aynasına çevirə bilirsiniz. Bir sözlə, mədəni irsin təbliğində inhisarı sevmirsiniz. Yazıda görəcəksiniz ki, Şeyxzamanov kimi sənətkarları unutmaq günahdır. Əminəm ki, bu görkəmli aktyor, dost-vətəndaş haqqında yazını çap etməklə, Azərbaycan mədəniyyətinə məhəbbətinizi nümayiş etdirəcəksiniz."* **("Kredo" qəzeti №33 (698) 8 sentyabr 2012-ci il).** Zənnimcə, ömrünün 85-ci ilini yaşayan professor özünəxas müdrikliklə, dəqiq müşahidə ilə çox düzgün nəticəyə gəlmişdir. Özü də bu qənaətlər təzədir. Günümüzün ovqatını özündə ehtiva edir.

Görkəmli filoloq alimlər - professor, Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru Camal Mustafayev (Dədə Camal), professor Q.Kazımov, professor, Dövlət Mükafatı laureatı N.Şəmsizadə, ədəbiyyatşünas tənqidçi Q.Bayramov, professor Ə.Tanrıverdi, professor T.Salamoğlu, professor M.Allahmanlı, tərcüməçi-şərqşünas H.Rüstəm... və başqaları Əli Rza poeziyasını müxtəlif tərəflərdən təhlilə çəkib, dəyərli fikirlər söyləyiblər.

Əziz dostum, Əli Rza, *«Kredo»* qəzeti yeddi yüzüncü sayına qədər on üç illik çox zəngin və dəyərli bir yol keçib. Bu qəzet sənin tribunandır. Bir çox hallarda ayrı-ayrı müəllifləri ədəbi prosesin diqqətinə çəkmək, haqqında az yazılan sənət adamlarının ədəbi yaradıcılığına güzgü tutmaq da bu qəzet vasitəsilə sənin missiyan olub. Professor C.Mustafayev, Xalq şairi Z.Yaqub, şair, publisist, *«Xəzər»* Universitetinin rektoru, professor H.İsaxanlı... və bir çox görkəmli, tanınmış sənət adamları haqqında da ədəbi-publisistik yazıların, tədqiqatların ədəbiyyatşünaslıq, ədəbi tənqid və ədəbi publisistikamızın ümumi axınında görünən, diqqəti çəkən əsərlərdir.

Buradaca bir məsələni də qeyd etmək istəyərdim. Sənin yaradıcılığında və ümumiyyətlə, *«Kredo»* qəzetinin fəaliyyətində Vətən mövzusu özünəməxsus yer tutur. Vətəndaşlıq qayəsi, Vətən uğrunda mübarizə öz yaradıcılığında olduğu kimi, bu qəzetin ətrafında birləşən ədəbi qüvvələrin hər birinin əsas ədəbi mübarizə yoludur. Cənub mövzusu, Vətənin qıraqda qalan yerləri - Göyçə, Borçalı, Dərbənd və Qarabağ ağrıları demək olar ki, qəzetin hər sayında hiss olunur, duyulur.

* * *

Əziz dostum, illərdən bəri yaradıcılıq əlaqələri sayəsində sənin təbiətində (indi çox azlarında müşahidə olunan) bir keyfiyyəti də qeyd etməyə bilmərəm. Sən imkan düşən kimi, kimin hansı istiqamətdə işləyə biləcəyini, cəmiyyətə yeni fikir deyə biləcəyini hiss edirsən, duyursan. Və bunu da ən müxtəlif yollarla həmin şəxsə təlqin edə bilirsən. Bir sözlə, yaradıcılığa, tədqiqata cəlb edib, həvəsləndirirsən. İnanıram ki, bir çox alimlərin çox dəyərli tədqiqat əsərlərinin yaranmasında (bunu bir çox görkəmli alimlərin qəzetdə dərc olunan tədqiqatlarının əvvəlində sənin ünvanına yazılmış məktublar da təsdiq edir) sənin böyük xidmətin var. Yaradıcı adamların ilhamı bəzən bir qığılcımdan asılı olur. Sənin özün, həssas münasibətin və *«Kredo»* qəzetinin yaratdığı mühit, şərait yalnız qığılcım deyil, od-alovdur.

*«Azərbaycanda latın əlifbasına keçib və Fərhad Ağazadə»* tədqiqat əsərimi işləyərkən bunu bir daha qabarıq gördüm. Bu tədqiqat əsərini qardaşım Hamlet İsaxanlı ilə ədəbi-elmi müzakirə və mübarizələrimiz zamanı seçmişəm. Ancaq sənin xidmətini də elə buradaca qeyd etməyi özümə borc bildim. Sonralar tədqiqat əsəri kitab halında nəşr olunarkən *«Müəllifdən»* adı altında qeydlərimdə münasibətimi minnətdarlıqla bildirmişdim: *«Mənim bu mövzuya, Fərhad Ağazadə şəxsiyyətinə olan hörmət və sevgimi dərindən hiss edən, duyan Əli Rza Xələfli «Fərhad Ağazadə kimin qohumudur?» adlı məqaləsində («Kredo» qəzeti, №27, 26 iyun 2010)* ***«Bu gün özünün qəlbində bütöv Azərbaycan duyğusu yaşadan hər bir kəs özünü Xətainin balası hesab edə bilər. Nərimanov haqqındakı tədqiqatları, əsərləri ilə mənəvi mühitimizə qəlbini aça bilən hər kəs elə Nərimanovun övladıdır. Bax elə bu mənada Fərhad Ağazadənin bir övladı da İsaxan İsaxanlıdır»*** *yazmaqla, zəhmətimə ən böyük qiyməti vermişdir. Məhz Əli Rza Xələflinin təklifi ilə Fərhad Ağazadə haqqında silsilə yazılarımı bir sıra əlavələr etməklə kitab halına salmaq qərarına gəldim. Yeri gəlmişkən, redaktoru olduğu «Kredo» qəzetində, əsrlərdən bəri ürəyi Vətən eşqi, torpaq sevgisi, xalq məhəbbəti ilə döyünənləri, Azərbaycan elminin, mədəniyyətinin ən ağır yükünü çiynində daşıyanları hər zaman sevə-sevə, böyük hörmət və sayqı ilə təbliğ edən Əli Rza Xələfliyə dərin təşəkkür edirəm»* ...Bəzən deyilənlərə qayıtmaq da yaxşıdır.

Sərlövhəyə çıxardığım *«Ömür bitər, yol bitməz»* dədə-babaların bizə mənəvi əmanətidir. Yəni yol dədə-babalardan qalıb. O, əbədidir. Yolu uçurumlarda qırmağa, kəsməyə haqqımız yoxdur. Onu gələcək nəsillərə ötürməliyik. Ömür isə hər birimizə verilmiş tale payıdır. Hər birimiz öz ömrümüzü yaşayırıq. Və yaşadığımız ömürdə - yaşam vaxtının payına düşən yolda görünürük. Özümüz kimi, olduğumuz kimi görünürük. Əgər o yolu qoruyuruqsa, daha yaxşı, daha aydın görünürük. Elə gələcək nəsillər də böyük yolu qoruyanlara daha çox minnətdar olurlar. O yolun qorunmasında *«Kredo»* qəzetinin və onun baş redaktorunun böyük rolu və xidməti var.

Bu qeydlərimi *«Kredo»* qəzetinin 700-cü sayına və yaşının 60-a keçid körpüsündə baş redaktora, eləcə də qəzetin bütün yazarlarına və redaksiya kollektivinə səmimi təbriklər kimi qəbul etsəydiniz sevinərdim.

Beləcə ömür bitər, yol bitməz. Ədəbi mübarizələrlə dolu ömrünüz uzun, yolunuz aydın və uğurlu olsun!

***04.10.2012***

*Təsisçi:*
Q. FİKRƏT

Qəzet Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.
Lisenziya 022610
Dövlət qeydiyyatı haqqında şəhadətnamə № R-112
İndeks 0367

Azərbaycan Beynəlxalq Bankı Nərimanov filialı
kod 805250
Mh 000042AZM1046-01
hh 777706 AZM 3274-01
VÖEN 1100401891

Ünvanımız:
Bakı, Az 1073, Mətbuat prospekti, 529-cu məhəllə "Azərbaycan" nəşriyyatı, 2-ci mərtəbə
Tel. : 538-91-50; 510-74-15 7-04, 7-05, 7-06, 7-07
E-mail: kredo@bak. net. az
*Qəzet həftədə bir dəfə çıxır.*

"Kredo" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
Tirajı: 1000
Sifariş: 3372